BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 Sosial-siyasi elmlər seriyası 2005

# MÜTƏŞƏKKİL DƏSTƏ TƏRƏFİNDƏN TERRORÇULUQ CİNAYƏTİNİN TÖRƏDİLMƏSİ AĞIRLAŞDIRICI HAL KİMİ

M.N.İMANOV

*Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214-cü maddəsində cinayətin icraçıları haqqında yox, cinayətin törədilməsi haqqında danışılır. Cinayətin törədilməsinin iştirakçıları qismində cinayətin icraçısı, köməkçisi, təhrikçisi və təşkilatçısı çıxış edir. Onlar terrorçuluq cinayətini qabaqcadan əlbir olmadan da törədə bilərlər. Lakin təcrübədə qabaqcadan əlbir olmayan bir qrup şəxs tərəfindən terrorçuluq cinayətlərinin törədilməsi hallarına son dərəcə nadir hallarda rast gəlinir, yaxud heç rast gəlinmir.*

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214.2.1-ci maddəsi terrorçuluq cinayətinin mütəşəkkil dəstə tərəfindən törədilməsini də tövsifedici əlamətlərdən biri kimi nəzərdə tutur. AR CM-in 34.3-cü maddəsində cinayətin mütəşəkkil dəstə tərəfindən törədilməsinin anlayışı verilmişdir: «Bir və ya bir neçə cinayətin törədilməsi üçün qabaqcadan birləşmiş iki və ya daha çox şəxsdən ibarət olan sabit cinayətkar qrup tərəfindən törədilən cinayət mütəşəkkil dəstə tərəfindən törədilmiş cinayət hesab olunur». Mütəşəkkil cinayətkar dəstə qabaqcadan əlbir olan bir qrup şəxsdən daha çox sabitlik əlaməti üzrə fərqlənir. Dəstə üzvləri arasında hansı əlaqənin «sabit» əlaqə kimi qiymətləndirilməsi məsələsi müəyyən qədər mübahisə doğuran məsələlərdəndir.

H.e.d. prof. F.Y.Səməndərovun fikrincə, mütəşəkkil dəstənin «sabit»lik əlaməti «ölçüyə»gələn meyarla izah edilmədiyindən mütəşəkkil dəstə tərəfindən törədilən cinayətlərin tövsifi məhkəmə təcrübəsində xeyli çətinlik yaratmışdır. Müəllif yazır: «Məsələyə aydınlıq gətirmək üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi özünün 20 aprel 1999-cu il tarixli qərarı ilə izahat vermişdir. Lakin nə bu izahda, nə də AR Ali Məhkəməsi Plenumunun «Özgə əmlakını qanunsuz ələ keçirmə və talama işləri üzrə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında» 1999-cu il 14 may tarixli qərarında mütəşəkkil dəstəyə verilən təfsir iştirakçılığın bu formasının vacib spesifik əlaməti olan «sabit dəstə» əlamətinə kifayət qədər aydınlıq gətirə bilməmişdir. Hər iki qərarda mütəşəkkil dəstənin cinayət hüquqi anlayışından daha çox kriminoloji anlayışına diqqət yetirilmişdir[1]».

Müəllifin mövqeyinə görə, mütəşəkkil dəstənin «sabit dəstə» əlaməti ölçüyə gələn meyar əsasında izah edilməli, dəstənin «sabitliyi» onun tərkibinə daxil olan üzvlərin kriminal fəaliyyətdə mün-

[1] «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası». B., 2003. «Digesta», s.75.

təzəm iştirakı ilə müəyyən edilməlidir. Yəni müntəzəm kriminal fəaliyyətdə dəstə üzvlərinin tərkibi əsasən dəyişmir. «Müntəzəmlik» cinayət hüquqi kateqoriyadır və dəstənin üç dəfə, yaxud da daha artıq hallarda cinayət törətməsini nəzərdə tutur. Dəstənin «sabitliyini» izah edən dəstənin müntəzəm cinayət fəaliyyəti dəstənin hər bir üzvünün fəaliyyətində müəyyən səmtləşmənin, zərərli yönəlişin baş verdiyini, onlarda cəmiyyətə zidd vərdişlərin yarandığını göstərir[2].

Bir, yaxud iki cinayətin törədilməsi məqsədilə təşkil olunan qrupun mütəşəkkil cinayətkar qrup hesab edilib-edilməməsi məsələsinə cinayət hüquq ədəbiyyatında baxışlar müxtəlifdir. F.Y. Səməndərov hesab edir ki, burada da dəstə üzvləri arasında sabit əlaqəni sübut edən digər göstəricilər mövcud olmalıdır. Məsələn, dəstə bir ağır, yaxud da xüsusilə ağır cinayət törətmək üçün yaranır. Belə cinayət adam oğurlama, girov götürmə, hava gəmisini qaçırma və s. bu kimi əməllərin hazırlanması və törədilməsi ilə bağlı ola bilər. Əgər bu xarakterdə cinayətlərin hazırlanması və törədilməsi üçün yaradılan dəstə uzun müddət, məsələn, altı aydan artıq fəaliyyət göstərirsə, belə dəstə mütəşəkkil dəstə kimi qiymətləndirilə bilər[3].

Hesab edirik ki, sabitlik və daha yüksək təşkil olunma əlamətləri mütəşəkkil dəstəni qabaqcadan əlbir olan bir qrup şəxsdən fərqləndirən əsas əlamətdir. Qanunun mənasına görə, mütəşəkkil dəstə iştirakçılığın digər formalarından — bir qrup şəxsdən və qabaqcadan əlbir olan bir qrup şəxsdən daha yüksək ictimai təhlükəliliyə malik olması ilə fərqlənir. Lakin iştirakçılığın formaları içərisində ictimai təhlükəlilik əlamətinə görə ən təhlükəlisi cinayətin cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədilməsidir. Cinayətkar birliyin (cinayətkar təşkilatın) anlayışı ilk dəfə olaraq normativ qaydada AR CM-in 34.4-cü maddəsində verilmişdir. AR CM-in 34.4-cü maddəsinə görə, ağır və ya xüsusilə ağır cinayətlərin törədilməsi məqsədi ilə sabit mütəşəkkil cinayətkar qrupun yaradılması və ya eyni məqsədlərlə iki və ya daha çox mütəşəkkil cinayətkar qrupun sabit birliyi cinayətkar birlik (cinayətkar təşkilat) hesab olunur. Cinayətkar birlik (cinayətkar təşkilat) iştirakçılığın daha yüksək ictimai təhlükəliliyə malik olan formasıdır.

Cinayət qanununda iştirakçılığın cinayətkar birlik (cinayətkar təşkilat) formasının mövcud olması üçün müəyyən əlamətlərin məcmusu tələb olunur:

a) cinayətkar birlik (cinayətkar təşkilat) ağır və ya xüsusilə ağır cinayətlərin törədilməsi məqsədi ilə yaradılan sabit mütəşəkkil cinayətkar qrupdur;

b) cinayətkar birlik (cinayətkar təşkilat) mütəşəkkil dəstələrin birliyinin yaratdığı cinayətkar təşkilatdır (birlikdir).

Prof. F.Y.Səməndərov yazır: «Cinayətkar birlik, yaxud cinayətkar təşkilat, bir qayda olaraq, sistemaltı elementlərdən (mütəşəkkil dəstələrdən) ibarət sistemdir. Sistemaltı element kimi mütə-

---

[2] «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası». B., 2003. «Digesta», s.75.

[3] Yenə orada.

şəккil dəstə iкi formada yaşayır: əvvəla, mütəşəккil dəstə iкi və daha artıq ağır və ya xüsusilə ağır cinayət törətməklə cinayətкar birliyə çevrilir; iкinci halda, mütəşəккil dəstə cinayətкar birliyin struкtur-funкsional bölümü кimi — sistemaltı ünsürlər кimi mövcud olur. Cinayətкar birliк sistemli struкtur əlaqələrə maliкdir. Onun yuxarı, orta və aşağı struкturları arasında üfüqi və şaquli istiqamətlərdə mürəккəb və məxfi əlaqələr mövcuddur. Belə əlaqələr yazılmamış normalarla tənzim olunan qeyri-formal davranış standartlarına söyкənir. Cinayətкar təşкilatın sıx birliк əlaməti кriminal tapşırığı yerinə yetirən cinayətкar təşкilatın daxili qrupları, bölmələri, конкret iştiraкçıları arasında qarşılıqlı əlaqələrin yeкdilliyini və dəqiqliyini xaraкterizə edir. Qüvvədə olan cinayət qanununa görə, cinayətкar birliк üçün ağır və ya xüsusilə ağır cinayətlərin edilməsi xaraкteriкdir. Cinayətкar birliyin fəaliyyəti ən çox qəsdən adam öldürmə, terrorçuluq, girov götürmə, silah və narкotiк maddələrlə bağlı biznes, reкet və s. bu кimi əməllərlə əlaqədar olur»[4].

Ağır və xüsusilə ağır cinayətlərin törədilməsi cinayətкar birliyin (cinayətкar təşкilatın) əsas fərqləndirici əlaməti hesab olunmur, ona görə кi, bu кateqoriya cinayətlər digər tip cinayətкar qruplar tərəfindən də törədilə bilər. Cinayətкar birliyin (cinayətкar təşкilatın) əsas fərqləndirici xüsusiyyəti ondan ibarətdir кi, burada hərəкətlərin miqyası, birliyin fəaliyyətinin davamlı və uzunmüddətli olması, yüкsəк təşкilatçılıq, dayanıqlı idarəetmə mexanizmi, yüкsəк конspirasiya, ələкeçməzliк, böyüк əhəmiyyət кəsb edən sosial, siyasi, iqtisadi qərarların qəbul edilməsinə təsir göstərməк qabiliyyəti, dövlət məmurları, siyasi, ictimai, maliyyə təşкilatları və onların əməкdaşları ilə gizli və sıx əlaqələrin olması ön cərgədə olur. Belə cinayətкar birliкlər (cinayətкar təşкilatlar) terrorçuluq aкsiyalarını da, məsələn, Kolumbiyada olduğu кimi dövlətin siyasətinin кöкündən dəyişdirilməsi məqsədilə törədirlər. Siyasi və dövlət xadimlərinin qətlə yetirilməsi terrorçuların gündəliк fəaliyyətinin əsasını təşкil edir. Dövlət səviyyəsində cinayətкar təşкilatların yaradılması və fəaliyyəti xüsusilə dəhşətlidir: Hitlerin imperiya höкumətini və Stalinçi siyasi büronu xatırlamaq кifayətdir. Bir sözlə, cinayətкar birliкlər (cinayətкar təşкilatlar) daha yüкsəк ictimai təhlüкəliliyə maliкdir.

Azərbaycan Respubliкası Cinayət Məcəlləsinin 214.2.2-ci maddəsi terrorçuluğun daha bir tövsifedici əlamətini — cinayətin təкrar törədilməsini nəzərdə tutur. Bu, hər hansı başqa zoraкılıq cinayətlərinin və ya hətta «qohum» cinayətlərin deyil, məhz terrorçuluq cinayətinin təкrar törədilməsini nəzərdə tutur. Cinayətin təкrar törədilməsinin anlayışı AR CM-in 16-cı maddəsində verilmişdir. Cinayətin təкrar törədilməsi dediкdə, Cinayət Məcəlləsinin eyni bir maddəsi ilə nəzərdə tutulmuş cinayətin iкi dəfə və ya iкi dəfədən çox törədilməsi (eyni cinayətin təкrarlığı), habelə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə nəzərdə tutulmuş iкi və ya

---

[4] F.Y.Səməndərov. Cinayət hüququ. Ümumi hissə. Dərsliк. B. «Hüquq ədəbiyyatı». 2002. s.389-390.

daha çox cinayətin törədilməsi ((müxtəlif cinayətlərin təkrarlığı) yalnız həmin Məcəllənin Xüsusi hissəsində birbaşa göstərilən hallarda) cinayətin təkrar törədilməsi hesab edilir.

Terrorçuluq cinayətinin təkrar törədilməsi dedikdə, aşağıdakılar başa düşülür:

a) şəxs əvvəllər terrorçuluq cinayətini törətmiş, lakin buna görə cinayət məsuliyyətinə cəlb edilməmişdir;

b) terrorçuluq cinayətinin törədilməsinə görə şəxs barəsində məhkəmənin hökmü vardır və o, cəzadan vaxtından əvvəl şərti olaraq azad edilmişdir;

c) şəxs xəstəliyi ilə əlaqədar olaraq terrorçuluğa görə əvvəllər ona təyin olunmuş cəzadan azad edilmişdir;

ç) şəxs amnistiya ilə əlaqədar əvvəllər cinayət məsuliyyətindən və ya əfvetmə aktı ilə əlaqədar cəzanın qalan hissəsini çəkməkdən azad edilmişdir;

d) şəxs terrorçuluq aktının hazırlanmasında iştirak etsə də, vaxtında hakimiyyət orqanlarını bu barədə xəbərdar etməklə və ya digər üsulla terrorçuluq aktının həyata keçirilməsinin qarşısının alınmasına kömək etdiyinə görə əvvəllər terrorçuluq cinayətini törətdiyi üçün cinayət məsuliyyətindən azad edilmişdir (AR CM-in 214-cü maddəsinin qeydi).

Terrorçuluq cinayətini törətmiş, lakin barəsində cəzanın icrasının təxirə salındığı hamilə və səkkiz yaşına qədər uşağı olan qadın tərəfindən yenidən terrorçuluq cinayətinin törədilməsi də təkrar terrorçuluq hesab olunur.

Terrorçuluğun təkrar törədilməsi o halda yaranmayacaqdır ki, şəxs əvvəllər törətdiyi terrorçuluq cinayətinə görə qanunla müəyyən edilmiş qaydada cinayət məsuliyyətindən azad olunmuşdur, yaxud əvvəlki terrorçuluq cinayətinə görə şəxsin məhkumluğu qanunla müəyyən edilmiş qaydada ödənilmiş və ya götürülmüşdür.

Terrorçuluğun odlu silahdan və ya silah qismində istifadə edilə bilən əşyalardan istifadə edilməklə törədilməsi bu cinayətin daha bir tövsifedici əlaməti (AR CM-in 214.2.3-cü maddəsi) kimi cinayət qanunvericiliyində nəzərdə tutulmuşdur. Qanunvericinin bu mövqeyi müəyyən qədər mübahisəli hesab olunmalıdır, ona görə ki, odlu silah və ya silah qismində istifadə edilə bilən əşyalar partlayışlar, yanğınlar və kütləvi bədbəxtliyə gətirib çıxara bilən digər nəticələri doğuran partladıcı maddələrlə müqayisədə, şübhəsiz ki, daha az təhlükəlidir.

«Xidməti və mülki silah haqqında» Azərbaycan Respublikasının 1 mart 1998-ci il tarixli Qanununun 2-ci maddəsinin 8-ci bəndinə görə, odlu silah barıtın və ya digər alışan maddələrin yanmasından yaranan enerji hesabına mərmisi istiqamətlənmiş hərəkət edərək müəyyən məsafədən hədəfi mexaniki zədələmək və ya sıradan çıxarmaq təyinatına malik olan silahdır. Odlu silaha müxtəlif çaplı tapançalar, avtomatlar, pulemyotlar, qumbaraatanlar və s. silahlar aiddir. Odlu silahdan istifadə edilməsi başqa şəxsin sağlamlığına zərər yetirmək məqsədilə onun tətbiq edilməsini nəzərdə tutur.

Silah qismində istifadə edilən başqa əşyalar insanın sağlamlı-

ğına zərər vurmaq üçün istifadə edilə bilən istənilən əşyalardır. Silah qismində istifadə edilən başqa əşyalar qismində «silah» anlayışına aid edilənlərdən başqa, istənilən əşyalar çıxış edə bilər. Bu zaman onların cinayətkar tərəfindən xüsusi olaraq uyğunlaşdırılmasının, düzəldilməsinin, dəyişdirilməsinin, əvvəlcədən hazırlanmasının və ya cinayət yerindən tapılmasının heç bir əhəmiyyəti yoxdur. Başlıcası odur ki, həmin əşyaların silah qismində istifadə edildiyi və zərərçəkmişin həyatı və sağlamlığı üçün təhlükə yaratdığı müəyyən edilsin[5].

A.E.Belyayev terrorçuluq cinayətini nəzərdə tutan cinayət qanununun maddəsinə verdiyi şərhdə qeyd edir ki, maddədə göstərilən mənada odlu silahdan istifadə edilməsi dedikdə, insanların həlak olması, əhəmiyyətli əmlak ziyanının vurulması, yaxud başqa ictimai təhlükəli nəticələrin baş verməsi, həmçinin digər üsulla terrorçuluq aktının törədilməsi təhlükəsini yaradan atəş açılması başa düşülməlidir. AR CM-in 214.2.3-cü maddəsinin nəzərdə tutduğu mənada odlu silahdan istifadə edilməsi odlu silahın nümayiş etdirilməsi və ya odlu silahdan atəş açılması niyyətinin bildirilməsi, həmçinin havaya atəş açılması hallarını əhatə etmir. Belə hərəkətlər AR CM-in 214.1-ci maddəsində nəzərdə tutulan hərəkətlərin törədilməsi ilə hədələmə kimi tövsif edilməlidir.

Terrorçuluğun adı çəkilən tövsifedici əlaməti o halda mövcud olmayacaqdır ki, odlu silahdan terrorçuluq aktı törədildikdən sonra tutulmaqdan yaxa qurtarıb qaçmaq məqsədilə istifadə edilmiş olsun. Bu cür hərəkətlər müstəqil olaraq tövsif edilməlidir. Terrorçuluq o halda odlu silahdan istifadə edilməklə törədilmiş sayılacaqdır ki, odlu silah bədən xəsarətləri yetirmək üçün tətbiq olunsun, yaxud digər şəxslərə cinayət törədən şəxsin həmin silahdan istənilən vaxt istifadə edə biləcəyini təsdiq edən hərəkətlər vasitəsilə nümayiş etdirilmiş olsun.

Hesab edirik ki, yararsız olan odlu silahdan, yaxud odlu silahı imitasiya edən silahdan istifadə etməklə də terrorçuluq cinayətini törətmək olar, ona görə ki, bu halda zərərçəkmiş şəxs (zərərçəkmiş şəxslər) son dərəcə gərgin psixi situasiyada olur və bu səbəbdən də silahın yararlı və ya yararsız olduğunun fərqinə vara bilmir. Yararsız odlu silahdan və ya onun imitasiya edən əşyalardan çox vaxt terrorçuluq məqsədilə nisbətən məhdud sayda vəzifələrin yerinə yetirilməsi və bir qayda olaraq, qısa zaman ərzində istifadə oluna bilər. Bununla belə yararsız odlu silahdan və ya onun imitasiya edən əşyalardan terrorçular tərəfindən hər bir halda istifadə edilməsi mümkündür.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214.2.4-cü maddəsində terrorçuluq cinayətinin daha bir tövsifedici əlaməti nəzərdə tutulmuşdur. Bu maddədə əslində iki tövsifedici əlamət təsbit olunmuşdur:

a) terrorçuluğun ehtiyatsızlıqdan insan ölümünə səbəb olması;

b) terrorçuluğun ehtiyatsızlıqdan digər ağır nəticələrə səbəb

---

[5] Quliyev R.İ., İmanov M.N. Cinayət hüququ. Xüsusi hissə. Bakı. «Digesta», 2001. s.292-293.

olması.

Burada «digər ağır nəticələr» anlayışı altında dövlət hakimiyyət və idarəetmə orqanlarının, bələdiyyələrin, habelə beynəlxalq təşkilatların işinin, mühüm əhəmiyyət kəsb edən siyasi, yaxud sosial-mədəni tədbirlərin pozulması, yaşayış məntəqələrini qaz, su, elektrik enerjisi və s. ilə təmin edən həyati əhəmiyyətli müəssisələrin və digər obyektlərin, nəqliyyat, rabitə obyektlərinin işində uzun müddətli fasilələrin yaranması, bir neçə şəxsin sağlamlığına ağır zərər vurulması, ekoloji fəlakət, tarixi, mədəni və ya dini abidələrin, təsərrüfat obyektlərinin, sənaye və ticarət müəssisələrinin və s. dağıdılması, müəssisələrin işinin pozulması, yaxud uzun müddətə dayanması, xeyli sayda insanın evsiz-eşiksiz qalması, ehtiyatsız hərəkətlər nəticəsində zərər yetirilməsi və s. nəzərdə tutulur. Hesab edirik ki, qəsdən törədilən hərəkətlər nəticəsində zərər yetirilməsi hallarında olduğu kimi burada da müvafiq ekspertizanın təyin edilməsi üçün zərurət vardır.

Ehtiyatsızlıqdan insan ölümünə və ya digər ağır nəticələrə səbəb olan terrorçuluq cinayətinin subyektiv cəhəti təqsirin qarışıq forması ilə xarakterizə olunur. Burada təqsirkarın terrorçuluq hərəkətlərinə (AR CM-in 214.1-ci maddəsi) psixi münasibəti təqsirin birbaşa qəsd formasında, insan ölümünə və ya digər ağır hərəkətlərə psixi münasibəti isə təqsirin ehtiyatsızlıq formasında olur. Əlbəttə ki, əgər terrorçuluq hərəkətləri nəticəsində ehtiyatsızlıqdan ağır olmayan zərər yetirildikdə, təqsirkarın əməli AR CM-in 214.2.4-cü maddəsi ilə deyil, 214.1-ci maddəsi ilə tövsif edilməlidir.

AR CM-in 214-cü maddəsinin qeydində şəxsin cinayət məsuliyyətindən azad edilməsinin xüsusi halı nəzərdə tutulmuşdur. Həmin maddənin qeydinə görə, terrorçuluq əməlinin hazırlanmasında iştirak etmiş şəxs hakimiyyət orqanlarını vaxtında xəbərdar etməklə və ya başqa üsulla bu əməlin qarşısının alınmasına yardım etdikdə və onun əməlində başqa cinayətin tərkibi olmadıqda, cinayət məsuliyyətindən azad edilir. Bu norma müəyyən mənada cinayətdən könüllü imtina etmə haqqında normanı (AR CM-in 30-cu maddəsi) təkrar edirsə də, onların fərqləndirici xüsusiyyətləri də vardır. Əgər şəxsin hərəkətləri könüllü imtina kimi cinayət-hüquqi qiymətini almışdırsa, onda CM-in Ümumi hissəsinin norması (AR CM-in 30-cu maddəsi) tətbiq olunmalıdır. Həmin normaya görə cinayəti törətməkdən könüllü imtina edən şəxs cinayət məsuliyyətinə cəlb olunmur. AR CM-in 214-cü maddəsinin qeydinə görə isə bu halda şəxs cinayət məsuliyyətindən azad olunmalıdır.

Ədəbiyyatda belə bir fikir səslənir ki (A.E.Belyayev), CM-in terrorçuluq cinayət tərkibinin nəzərdə tutulduğu maddəsinin qeydi terrorçuluq aktının bir nəfər tərəfindən hazırlanması hallarına deyil, iştirakçılığın formasından və iştirakçının növündən asılı olmayaraq terrorçuluq aktının törədilməsində birgəiştirakçılığın bütün hallarına şamil olunur. Hesab edirik ki, bu fikir qanunun nə məzmunundan, nə də ruhundan irəli gəlir. Fikrimizcə, AR CM-in 214-cü maddəsinin qeydində cinayət məsuliyyətindən azad etmənin xüsusi halı həm də tək bir nəfərin terrorçuluq aktının hazırlanmasında iştirak etdiyi bütün hallara da şamil olunmalıdır.

AR CM-in 214-cü maddəsinin qeydində terrorçuluq aкtını hazırlayan və ya onun hazırlanmasında iştiraк edən, laкin sonradan haкimiyyət orqanlarını vaxtında xəbərdar etməкlə və ya başqa üsulla onun törədilməsinin qarşısını almağa qərar verən şəxsin fəal pozitiv hərəкətlərinə dair birbaşa göstəriş vardır. Belə hərəкətlər hətta o halda da кönüllü edilmiş hərəкətlər кimi qiymətləndiriləcəкdir кi, bu hərəкətlər tutulmaqdan qorxaraq, dini motivlərin təsiri altında, ibadət zamanı din xadiminin birbaşa göstərişi əsasında və s. edilmiş olsun. Laкin belə hərəкətlər sonuncu hərəкətlər olmaya da bilər, o mənada кi, şəxs hətta terrorçuluq aкtının həyata кeçirilməsi üçün hazırlıq hərəкətlərini davam etdirə bilər. Bu halda şəxs cinayət məsuliyyətindən azad olunmaq hüququnun olmasına istinad edə bilməz. Göstərilən halda şəxs cinayət məsuliyyətindən o halda azad oluna bilər кi, o, təк və ya qrup daxilində olmasından asılı olmayaraq niyyətini axıra qədər çatdırmamaq haqqında yeкun qərar qəbul etmiş olsun və əlbəttə кi, bu halda cinayət məsuliyyətindən azad etmə yalnız ictimai təhlüкəli nəticələr baş verənə qədər mümкündür.

Qeyd etməyi zəruri sayırıq кi, AR CM-in 214-cü maddəsinin qeydi yalnız o halda tətbiq oluna bilər кi, terrorçuluq aкtının hazırlanmasında iştiraк etmiş şəxs bu haqda haкimiyyət orqanlarına vaxtında xəbər vermiş olsun, yaxud başqa üsulla terrorçuluq aкtının həyata кeçirilməsinin qarşısının alınmasına кöməк etmiş olsun. Terrorçuluq aкtının qarşısının alınması cəhdi belə cəhdi edən şəxsin özünün, digər şəxslərin «günahı» üzündən, habelə hadisələrin təsadüfi axarının nəticəsi olaraq uğursuzluğa düçar ola bilər. Əsas məsələ ondan ibarətdir кi, şəxs terrorçuluq aкtının baş verməsinə yol verilməməsi üçün vicdanlı cəhd etmiş olsun və bütün qüvvəsi ilə hər şeyi yerinə yetirsin. Hesab ediriк кi, bu halda şəxs cinayət məsuliyyətindən azad edilməlidir, ona görə кi, o, terrorçuluq aкtının həyata кeçirilməsinin qarşısının alınmasına fəal yardım etmişdir.

Hazırlanan terrorçuluq aкtı haqqında açıq və ya gizli üsulla, öz təşəbbüsü ilə, yaxud xüsusi xidmət orqanlarının göstərişi əsasında haкimiyyət orqanlarını vaxtında xəbərdar etməyə dair qanunda göstərilən müddəa haкimiyyət orqanları tərəfindən həmin şəxsə ictimai təhlüкəli nəticələrin qarşısını almaq imкanının verilməsini də nəzərdə tutur. Əlbəttə кi, hazırlanan terrorçuluq aкtı haqqında haкimiyyət orqanlarına məlumat verən şəxs həmin hərəкətləri etməк üçün zəruri vaxt və digər imкanlara da maliк olmalıdır. Əgər haкimiyyət orqanları şəxsin verdiyi məlumatı qəbul etməzlərsə, həmin məlumatı yalan məlumat qismində qəbul edərlərsə, yaxud həmin məlumatın məzmununu düzgün başa düşməzlərsə, bunu məlumat verən şəxsin təqsirinə aid etməк olmaz.

Məlumatı verən şəxsin özü (əgər onun belə imкanı vardırsa) nəinкi terrorçuluq hərəкətlərinin qarşısının alınmasına yönələn hərəкətləri кöməк formasında edə bilər, o, həmçinin belə hərəкətləri bilavasitə yerinə yetirə bilər. Terrorçuluq hərəкətlərinin qarşısının alınmasına yönələn hərəкətlərə aşağıdaкı hərəкətlər aid edilməli-

dir: a) terror hərəkətlərinin həyata keçirilməsində istifadə olunan silahları və digər vasitələri götürmək və ya müvəqqəti olaraq sıradan çıxarmaq; b) terrorçulara qarşı zor tətbiq etmək; c) terrorçulara yalan məlumat vermək; ç) terrorçuları tutmaq və ya onları aldadaraq başqa yolla aparmaq; d) terrorçuların tutulmasına fəal kömək göstərmək və s.

Terrorçuluq cinayəti ilə əlaqədar olaraq cinayət məsuliyyətindən azad etmənin AR CM-in 214-cü maddəsinin qeydində göstərilən xüsusi halının Cinayət Məcəlləsinin Xüsusi hissəsinin başqa maddələrinin qeydlərində təsbit olunmuş cinayət məsuliyyətindən azad etmənin digər xüsusi hallarından mühüm bir fərqi də vardır. Həmin fərq ondan ibarətdir ki, AR CM-in Xüsusi hissəsinin digər maddələrinin qeydində müvafiq cinayətlərə görə cinayət məsuliyyətindən azad etmə bir şərtlə tətbiq oluna bilər: şəxs həmin cinayəti törətməlidir, başqa sözlə, cinayət tərkibinin obyektiv cəhətinə daxil olan hərəkəti və ya hərəkətsizliyi etməlidir, habelə maddi tərkibli cinayətlərdə müvafiq maddənin dispozisiyasında nəzərdə tutulan ictimai təhlükəli nəticələr də baş verməlidir. Məsələn, AR CM-in adam oğurluğuna görə cinayət məsuliyyəti nəzərdə tutan 215-ci maddəsinin qeydində təsbit olunan müddəa, yəni girov götürən şəxsin bu cinayəti törətdikdən sonra könüllü və ya hakimiyyət orqanlarının tələbi ilə girov götürüləni (götürülənləri) azad etməsi, əgər onun əməlində başqa cinayət tərkibinin əlamətləri olmazsa, əməlində adam oğurluğu cinayətinin başa çatmış tərkibi olan həmin şəxsin cinayət məsuliyyətindən azad edilməsi üçün hüquqi əsas hesab edilir.

Prof. F.Y.Səməndərov cinayət məsuliyyətindən azad etmənin sadalanan hallarını səmimi peşmançılıqla bağlı cinayət məsuliyyətindən azad etmənin halları sırasına aid edir[6].

Terrorçuluq cinayət tərkibini nəzərdə tutan AR CM-in 214-cü maddəsinin qeydinə görə isə yalnız terrorçuluq əməlinin hazırlanmasında iştirak etmiş şəxs hakimiyyət orqanlarını vaxtında xəbərdar etməklə və ya başqa üsulla bu əməlin qarşısının alınmasına yardım etdikdə cinayət məsuliyyətindən azad edilə bilər. Başqa sözlə, terrorçuluq cinayətini törədib başa çatdırmış, yəni AR CM-in 214-cü maddəsinin dispozisiyasında göstərilmiş hərəkətləri (hərəkətsizliyi) törətmiş şəxs cinayət məsuliyyətindən azad edilə bilməz.

AR CM-in 214-cü maddəsinin qeydi ilə əlaqədar onu da qeyd etməyi zəruri hesab edirik ki, əslində cinayətin hazırlıq («terrorçuluq əməlinin hazırlanması») və ya cinayətə cəhd mərhələlərində cinayəti törətmək niyyətindən geri çəkilmə bütün hallarda cinayəti başa çatdırmaqdan könüllü imtina institutu ilə əhatə olunur. Çünki könüllü imtina institutu o halda mövcud olur ki, şəxs törətməyə başladığı cinayəti ya cinayətə hazırlıq mərhələsində, ya da cinayət etməyə cəhd mərhələsində başa çatdırmaqdan imtina etmiş olsun.

---

[6] Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə. Dərslik. Bakı. «Hüquq ədəbiyyatı», 2002, s. 559.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası. B., «Digesta», 2003.
2. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə. Dərslik. B. «Hüquq ədəbiyyatı». 2002.
3. Quliyev R.İ., İmanov M.N. Cinayət hüququ. Xüsusi hissə. Bakı. «Digesta», 2001.
4. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə. Dərslik. Bakı. «Hüquq ədəbiyyatı», 2002.


## СОВЕРШЕНИЕ ТЕРРОРИСТИЧЕСКОГО ПРЕСТУПЛЕНИЯ ОРГАНИЗОВАННЫМИ ГРУППАМИ КАК ОСЛОЖНЯЮЩЕЕ ОБСТОЯТЕЛЬСТВО

**М.Н.ИМАНОВ**


### АННОТАЦИЯ

В 214-ой статье Уголовного Кодекса Азербайджанской Республики говорится не об исполнителях преступления, а происхождении преступления.

В статье обстоятельно излагаются все пункты УК Азербайджанской Республики связанные с террористическими акциями.